İlham Əliyevin Qarabağ zəfəri son nəticə deyil, başlanğıcdır

Bakı Şəhər İcra Hakimiyyətinin nəşr etdiyi "ZƏFƏR MEMUARLARI. Döyüşçülər sərkərdə və müharibə haqqında" kitabından istifadə olunub

MƏLİKOV FAMİL ALİM OĞLU
ehtiyatda olan kapitan

1990-cı il noyabrın 16-da Salyan rayonunda anadan olub. Salyan rayonundakı Mərdan Muradxanov adına 6 nömrəli orta məktəbin məzunudur.

2007-2011-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində qoşun kəşfiyyatı ixtisası üzrə ali təhsil alıb. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kəşfiyyat taqım komandiri kimi təkmilləşdirmə kursu keçib. 2012-ci ildə Murovdağ istiqamətində döyüş tapşırığı yerinə yetirən hərbi hissədə taqım komandiri kimi fəaliyyətə başlayıb. 2014-cü ildə "N" saylı hərbi hissənin kəşfiyyat taborunda qrup komandiri təyin olunub. 2015-ci ilin aprel ayından fəaliyyətini Xüsusi Təyinatlı Qüvvələrdə davam etdirib.

Aprel döyüşlərinin və Vətən müharibəsinin iştirakçısıdır. İkinci qrup müharibə əlilidir.

"Azərbaycan Bayrağı" ordeni, "Şücaətə görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə, "Hərbi xidmətə görə", Azərbaycan Silahlı Qüvvələrinin 95, 100 illik "Yubiley", 1-ci, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib.

Hazırda Dövlət Gömrük Komitəsinin Hava Nəqliyyatında Baş Gömrük İdarəsində çalışır. Gömrük xidməti kapitanıdır.

Ailəlidir, bir övladı var.

Müzəffər Ali Baş Komandan İlham Əliyev deyir ki, Vətən müharibəsindəki böyük qələbəni bizə yaşadan müstəqillik dövründə yetişdirdiyimiz gənclər oldu, çünki bu gənclər yüksək vətənpərvərlik ruhunda böyümüşdülər.

Həqiqətən də, belə idi. Biz gənclər müstəqillik dövründə böyüdük. Məktəblərimizin bütün sinif otaqlarında başımızı yuxarı qaldıranda divarlarda faciələrimizi əks etdirən, torpaqlarımızın işğal tarixlərini göstərən lövhələri görürdük. Öyrəndiyimiz şeirlərin əksəriyyəti vətənpərvərlik məzmununda olurdu. Bütün bunlar bizi böyük qələbəyə aparan yolun ilk rüşeymi idi...

Hərbçi olmaq istəyi və gerçəyə çevrilən xəyallar

Uşaq vaxtı gələcəkdə peşə seçimi ilə bağlı hərənin bir fikri olur: biri mühəndis, digərləri həkim, müəllim, iqtisadçı və s. sənətlərin sahibi olmaq istəyir. Zaman keçir, fikirlər dəyişir.

Amma mən əvvəldən sona qədər fikrimi dəyişmədim: uşaqlıqdan hərbçi olmaq arzusunda idim və qətiyyətlə bu arzumu gerçəkləşdirməyə doğru irəliləyirdim.

Evdə bir bacı, bir qardaş idik. Fiziki cəhətdən zəifliyimə görə valideynlərim hərbçi olmağımı istəmirdilər. Dayım hərbçi idi, onu formada görəndə çox sevinirdim. Digər tərəfdən, böyüdükcə əzəli torpaqlarımızın erməni tapdağında olması faktı ilə barışa bilmirdim. Deyirdim ki, biz sayca da onlardan çoxuq, nədən hücum edib torpaqlarımızı geri qaytarmırıq?

Xocalı faciəsindəki qətliamı hər dəfə teleekranlarda görəndə ürəyim parçalanırdı, içimdə qisas hissi yaranırdı. Bütün bunlar hərbçi olmağıma aparan yolda fikrimi daha da qətiləşdirirdi.

Özü də kəşfiyyatçı olmaq istəyirdim. Çünki kəşfiyyatçılar gizli şəkildə düşmənin olduğu ərazilərə daxil olur, məlumatlar toplayır və lazım olanda da məhv edir.

2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olanda çox sevinirdim. Sevinirdim ki, ən böyük arzumun gerçəkləşməsinə doğru ilk addımım uğurlu oldu.

2012-ci ildə Murovdağ istiqamətində döyüş tapşırığı yerinə yetirən hərbi hissəyə təyinat alanda da çox qürurlanırdım. Aran rayonunda böyüsəm də, əraziyə tez uyğunlaşdım. Düşmənlə üz-üzə idik. 2 il orada mühüm tapşırıqlar yerinə yetirdik və böyük təcrübə topladım.

Onu da deyim ki, 2003-cü ildən başlayaraq ölkəmizdə ordu quruculuğu daha sürətlə, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilirdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar milli ordumuzun dünyanın ən qüdrətli orduları sırasına daxil olmasına imkan yaradırdı. Prezident İlham Əliyev dövlət quruculuğunda ordu ilə bağlı məsələlərin mahiyyətini açıqlayaraq bildirirdi ki, orduya hər il ayrılan xərclər artır və bu siyasət davam etdiriləcək. Ölkəmizin artan iqtisadi qüdrəti imkan verirdi ki, ordumuzun maddi-texniki bazası daha da gücləndirilsin. Mən bu prosesin birbaşa canlı şahidi idim.

Beləliklə, illər keçdikcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Silahlı Qüvvələrində böyük dəyişiklikləri qürurla izləyirdim. Bunlar hər bir hərbçini sevindirirdi. Bu prosesə xüsusi diqqət göstərən Ali Baş Komandanımızın tapşırıqlarına əsaslanıb müasir standartlara uyğun yeni hərbi hissələr qurulur, şəxsi heyətin həyat və məişət şəraiti daha da yaxşılaşdırılır, ən müasir silah-sursat və hərbi texnika ilə təmin edilirdi. Məhz bu qərarların sayəsində Silahlı Qüvvələrimiz Cənubi Qafqazın ən güclü ordusuna çevrildi və əsgərlərimizin mənəvi və fiziki keyfiyyətləri, döyüş ruhu ən yüksək səviyyəyə çatdı.



Xidmət dövründə fəaliyyətimi Xüsusi Təyinatlı Qüvvələrdə davam etdirmək üçün müraciət etdim. Çünki eşidirdim ki, XTQ-nin hərbçiləri böyük qəhrəmanlıq göstərir, yüksəksəviyyəli əməliyyatlar həyata keçirirlər. XTQ-də xidmət etməyi böyük şərəf bilirdim. 2014-cü ildə onlar Ağdam istiqamətində böyük əməliyyat keçirmiş, düşmənin xeyli sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etmişdilər. Bu da məni XTQ-də xidmət etməyə çox həvəsləndirirdi.

2014-cü ildə istəyim reallaşdı. XTQ-dən hərbi hissəmizə seçimə gəlmişdilər və böyük həvəslə mən də müsabiqəyə yazıldım. Hərbi hissəmizin komandanlığı xidməti fəaliyyətim haqqında müsbət rəy verdikdən sonra mənə də xüsusi təyinatlı kəşfiyyatçı olmaq nəsib oldu.

Xüsusi təyinatlı kəşfiyyatçı həyatı

2015-ci ildən başlayaraq xüsusi təyinatlılar ailəsinə qoşuldum və çox böyük təcrübə topladım. Məni XTQ-nin "N" saylı hərbi hissələrindən birinə göndərdilər. Artıq qrup komandirinin müavini kimi fəaliyyət göstərir və bununla fəxr edirdim. Çünki həm peşəmi sevir, həm də xüsusi təyinatlı olmağımla qürur duyurdum. Bir vaxtlar fəaliyyətlərinə həsəd apardığım igidlərlə çiyin-çiyinə olmaq mənim üçün fəxr idi.

Burada çox təcrübə topladım. Həm də Vətəni sevməyi, dosta, yoldaşa sadiqliyi və bağlılığı elə təbliğ edirdilər, elə başa salırdılar ki, insanın canına-qanına hopurdu. XTQ-də "bir nəfər hamı üçün, hamı bir nəfər üçün" devizi əsas şərtdir. Qorxmazlıq, sədaqət, cəsarət, igidlik kimi yüksək əxlaqi göstəricilər xüsusi təyinatlılar üçün əsas meyarlardır.

Cənab generalımız Hikmət Mirzəyevin söylədiyi belə bir şüar var: "Mənim sədaqətim mənim şərəfimdir". Bizə orada bunu öyrətdilər.

Bir amalımız var idi - düşməndən qisas almaq. Tək ermənidən yox, Azərbaycana düşmən olan bütün qüvvələrdən. Ona görə də xüsusi təyinatlılar daim hazırlıqlı, döyüş ruhlu və əzmli olmalıdır.

Bütün bunları öyrəndiyimiz üçün Ali Baş Komandanın, XTQ komandanlığının verdiyi bütün tapşırıqları həmişə uğurla yerinə yetirmişik. Onlardan biri də Aprel döyüşləridir.

Bu döyüşlərdən öncə bizə məlumat daxil olmuşdu ki, düşmən təxribata hazırlaşır. Həmin günlərdə kurslarda idik. Aprelin 1-də tapşırıq gəldi və hazırlıqlarımızı görüb Tərtər istiqamətinə yollandıq. Aldığımız tapşırıq düşmənin möhkəmləndiyi yerlərə sızma əməliyyatı həyata keçirmək idi. Əməliyyata başladıq və Talış istiqamətində irəliləmək istəyən düşmənin bir taborunun şəxsi heyətini, demək olar, məhv etdik. Çox sürətlə irəliləyirdik. Atəşkəs elan olunmasaydı, daha böyük əraziləri düşməndən təmizləyə bilərdik. Keçirdiyimiz əməliyyatlar zamanı düşmən silahını atıb qaçırdı. Onların güvəndikləri "keçilməz Ohanyan" sədləri idi, amma biz o sədləri də elə keçirdik ki, aralarına çaxnaşma, canlarına vəlvələ düşürdü.

Biz bütün dünyaya, o cümlədən düşmənə göstərdik ki, Azərbaycan Ordusu 30 il əvvəlki ordu deyil. Bu gün ən müasir silah-sursatla, hərbi texnika ilə təchiz edilmiş, yüksək döyüş ruhlu Azərbaycan Ordusu mövcuddur və bu ordunu idarə edən qətiyyətli Ali Baş Komandan var. Bunu 44 günlük Vətən müharibəsindəki qələbəmiz də bir daha təsdiqləyib.

Aprel döyüşlərindəki böyük uğurumuz bizi çox ruhlandırdı və böyük Zəfərə aparan yolumuzda döyüş ruhumuzu daha da yüksəltdi.

Vətən müharibəsi - çətin və məsuliyyətli missiya

Aprel zəfərindən sonra fəaliyyətimi müxtəlif vəzifələrdə davam etdirdim. Bizim fəaliyyətimiz həm də özümüzdən sonra gələn XTQ-çilərə bacarıqlarımızı, biliklərimizi aşılamaqdan ibarətdir. Ona görə də müxtəlif vəzifələrdə çalışarkən bu istiqamətdə əlimdən gələni əsirgəmədim.

Bizi necə hazırlamışdılar, biz də o qaydalara, tələblərə uyğun özümüzdən sonra gələnləri öyrətdik. Hər zaman tabeliyimdə olan əsgərlərə deyirdim ki, xüsusi təyinatlı üçün Vətən hər şey deməkdir. Vətən namusumuz, şərəfimiz, azadlığımız, mənliyimizdir. Vətən torpağı müqəddəsdir və o dəyişmir, satılmır, köhnəlmir, qocalmır. Vətəni qorumaq hər bir vətəndaşın borcudur və bunun üçün Vətəni sevmək lazımdır.

Orada zabit-əsgər yox, əsl birlik, dostluq münasibətləri var, psixoloji cəhətdən hər zaman yüksək döyüş ruhlu, ən çətin əməliyyatlara hazırlıqlı hərbçilər mövcuddur. Xüsusi təyinatlı hərbçinin ilk növbədə fiziki hazırlığı, psixoloji durumu yüksək səviyyədə olmalıdır. Ona görə də il ərzində əməliyyatların, məşqlərin böyük hissəsi dağlarda, yüksəkliklərdə həyata keçirilir.

Beləliklə, bütün bunlar bizi istənilən savaşa tam hazır vəziyyətə gətirirdi. Hər sabah gözümüzü açanda axşam savaşa gedəcəyimizi fikirləşmişik. Hər axşam gözümüzü yumanda isə sabah Ali Baş Komandanın "İrəli!" əmrini verəcəyi müjdəsi ilə ayılacağımızı düşünürdük. Hər an döyüşə hazır vəziyyətdə tapşırıq gözləyirdik.

Şükürlər olsun ki, Ali Baş Komandanımız bizlərə bu imkanı yaratdı və ən əsası, alnımızdakı qara ləkəni təmizləməyə şans verdi. Biz də böyük həvəslə üzərimizə düşən missiyanı şərəflə, uğurla reallaşdırdıq.

2020-ci il sentyabrın 27-də düşmənin cəbhə xəttində törətdiyi təxribatlara cavab olaraq əks-hücum əməliyyatları başladı. Ali Baş Komandanımızın xalqa müraciətindən sonra bizə də tapşırıq verildi. Əməliyyatlara Ağdərə-Kəlbəcər istiqamətindən daxil olduq. Bizim vəzifəmiz düşmənin yerləşdiyi mövqelərə doğru kəşfiyyat əməliyyatları həyata keçirmək, pusqu qurub canlı qüvvəsini məhv etmək və ərazilərdəki bütün məlumatları komandanlığa ötürməkdən ibarət idi.

Həmin istiqamətdə 5 gün əməliyyatlar keçirdik. Bu müddətdə düşmənin 130-dan çox canlı qüvvəsini məhv etdik. İlk gün düşmənin şəxsi heyətlə dolu avtomobilini partlatdıq. Hava dumanlı olduğu üçün onlar bizim gəlişimizdən xəbərsiz idilər. Duman çəkiləndə çox yaxın məsafədə döyüşə başladıq və düşmən qüvvələri tamamilə məhv edildi. Onu da deyim ki, kimsə yaralananda heç kimə demirdi: yarasını sarıyıb növbəti tapşırığa gedirdi. Çünki heç kim istəmirdi ki, əməliyyatdan kənarlaşsın.

Əməliyyatdan sonra yoxlama keçirəndə gördüm ki, əsgərin birinin qolunda qan ləkəsi var. Soruşanda dedi: "Komandir, qorxdum ki, məruzə etsəm, geri göndərəcəksiniz". Bu, ilk növbədə, qisas yanğısının, vətənpərvərlik hissinin təzahürü idi. Əsgərlərin hamısı savaşmaq, düşməni məhv edib 28 ildən sonra doğma torpaqlarımıza ayaq basmaq istəyirdi.

lər. Bu da komandirlər heyətini çox sevindirirdi. Əməliyyatlar keçirəndə düşmən əsgərləri uzaqdan bizi görən kimi silahlarını atıb qaçırdılar.

Kəlbəcər istiqamətindəki missiyamızı başa vurduqdan sonra başqa tapşırıq aldıq: bu dəfə Cəbrayıl rayonu istiqamətində əməliyyatlar keçirməli idik. Həmin ərazilər, əsasən, düzənlik yerlər olduğu üçün əməliyyatların keçirilməsi bir qədər ağırlaşırdı. Çünki canlı hədəf kimi düşmən üzərinə gedirdik. Ona görə də əməliyyatlarımızı, əsasən, gecələr həyata keçirirdik.

Əməliyyatlarımız çox sürətli gedirdi. Bir epizod yadımdan heç vaxt çıxmır: düşmənin minaatan batareyası atəşdən sonra yerini dəyişmək istəyirdi, amma biz onları izləyərək təqib etdiyimizə görə manevr edə bilmədilər, başlarının üstünü dərhal kəsdirib hamısını məhv etdik.

Hər döyüş bir qəhrəmanlıq dastanı idi

O qədər sürətlə irəliləyirdik ki, arxadakı qüvvələrimiz bizə yetişməkdə bir qədər ləngiyirdilər. Elə olurdu ki, bir gündə 7-8 kəndə girirdik. Erməni hərbçiləri bizi görən kimi vahiməyə düşür və qaçıb canlarını qurtarmağa çalışırdılar.

Oktyabrın 4-də Cəbrayıl rayonunun mərkəzi azad edildi, amma bəzi kəndlər hələ işğalda idi. Növbə-növbə kəndləri düşməndən təmizləyirdik. Əməliyyatlardan birində düşmən komandirinin avtomobilini ələ keçirdik. Maşından çanta götürmüşdüm: içərisində 4 ədəd döyüş xəritəsi və alayın kodlaşdırılmış danışıq cədvəli vardı. Həmin danışıq cədvəli vasitəsilə düşmən alayının bütün zabit heyətinin əmr və tapşırıqlarına qulaq asmaq mümkün idi.

Biz irəlilədikcə, dərinliyə getdikcə düşmən başqa taktikalarla bizi ləngitməyə çalışırdı. Yüksəkliklərdə, dəhliz kimi ərazilərdə snayperlər, pulemyotçular yerləşdirmişdilər, ağaclarda kameralar quraşdırmışdılar. Çətinlik çəkirdik, ancaq gecələr duman çökəndən sonra hərəkətə başlayırdıq.

Bir maraqlı hadisə də yenə Cəbrayıl ərazisində baş verdi: gecə hücuma keçib yüksəkliyi ələ keçirdik. Səhər açılanda gördük ki, səngərlər var. O səngərlərdə dincəlməyə qərar verdik. Çünki yuxarı komandanlıqdan göstəriş gəldi ki, çox irəli getmisiniz, bir qədər gözləyin, arxadakı qüvvələr sizə yetişsin. Postlar təyin edib dincəlmək qərarı verdik. Səngərləri gəzib təhlükəsizlik tədbirlərini gücləndirərkən gördüm ki, səngərin içərisində torpaq topası var, üzərində də bel. Öz-özümə dedim ki, köhnə səngərin içində belə bir şeyin olması qeyri-mümkündür. Sən demə, səngərin içərisində yeraltı sığınacaq var. Onun qapısının üstü torpaqlanıb.

Belin sapından tutub torpaqdan çıxaran kimi qapı açıldı və içəridən erməni əsgərlərinin səsi gəldi. Cəld gözyaşardıcı qaz balonunu çəkib atdım. Bir qədər sonra başladılar səngərdən çıxmağa. Əllərini qaldırıb rus dilində yalvarırdılar. Bir əsgərimiz atəş açan kimi qışqırmağa başladılar. Silahımı çəkib səngərin üstünə qalxdım. Onlar məni görmürdülər. Baxdım ki, qabaqda gələn əllərini qaldırıb yalvarır, onun arxasındakı isə silahını bizim tərəfə tuşlayaraq irəliləyir, yəni tələ qururlar. Bu, məni çox qəzəbləndirdi. Öz-özümə dedim ki, can hayında olduqları halda belə erməni xislətini yenə göstərirlər.

Savaş meydanında erməni əsgərinin silahını, bayrağını atıb qaçmaqdan başqa çarəsi qalmırdı. Biz isə daha sürətlə irəliləyirdik. Hərdən radio vasitəsilə Ali Baş Komandanın xalqa müraciətlərini, xoş müjdələrini dinləyəndə və rabitədə digər cəbhələrdə döyüşən yoldaşlarımızın uğurlarını eşidəndə daha da ruhlanırdıq, qələbə xəbərləri bizə əlavə stimul verirdi, döyüş əzmimiz daha da yüksəlirdi.

Bütün bunlar yorğun olsalar belə şəxsi heyətin psixoloji durumuna çox müsbət təsir göstərirdi. Düşmənlə üzbəüz olan əsgər hər an Ali Baş Komandanın özünün də onun yanında olduğunu hiss edir, onun "dəmir yumruğ"unun düşmən üçün nə dərəcədə qorxulu olduğunu bilərək daha böyük cəsarətlə irəli atılırdı.

Bir taborla düşmən alayının üzərinə hücum

Hər gün irəliləyirdik. Hava qaranlıq və duman olsa da, yolda tank tırtılının izini gördüm. Pusqu qurduq və səhərə qədər gözlədik. Hava açılanda erməni əsgərlərinin səsi gəlməyə başladı. Əvvəl az idilər, sonra getdikcə sayları çoxaldı. Koordinatları müəyyənləşdirib komandanlığa ötürdük. Çünki ərazidə xeyli sayda canlı qüvvə və texnika var idi. Dedik ki, artilleriya atəşi ilə ərazini vursunlar. Bizdə tank əleyhinə iki raket ("Spayk") var idi. Raketləri tankları vurmaq üçün hazırlayanda düşmən bizi gördü.

Aramızda 150 mert məsafə vardı. Birinci raketi atıb tankı vurduq və döyüş başladı. Sən demə, burada düşmənin alayı yerləşirmiş. 450 nəfərə yaxın şəxsi heyət və bir tank taboru vardı. Biz bunu bilmədən bir taborla, yəni 100 nəfərə yaxın heyətlə alayın üzərinə hücuma keçdik. Güclü döyüş gedirdi. Şəhidlərimiz, yaralılarımız oldu. Mən də yaralandım: yanıma düşən əl qumbarasının qəlpəsi boğaz nahiyəmə dəydi. Üzərimdəki döyüş ləvazimatları çox olduğu üçün hərəkət etmək çətinlik yaradırdı, amma silahı yerə qoymadım. Bu vəziyyətdə atəş açırdım, amma döş qəfəsimdən dəyən güllə çox ağrı verdi: ağciyərim sıradan çıxdı, üç qabırğam qırıldı.

Bölmə komandiri atəş altında qaldığımızı görüb mövqeyimizin koordinatını artilleriya bölmələrimizə ötürdü ki, ərazini atəşə tutsunlar. Yəni hər birimiz o anda şəhidliyi göz önünə aldıq. Bizə hər zaman bunu aşılamışdılar: sona qədər döyüş, təslim olma, lazım gəlsə, Vətən uğrunda canını fəda et. Çünki şəhidlik ali məqamdır, ən yüksək zirvədir. Biz ölməyə yox, öldürməyə getmişdik, amma bu yolda şəhid də ola bilərdik. Bu, müqəddəs borc idi bizim üçün.

Bir müddətdən sonra düşməni geri çəkilməyə məcbur etdik: bir taborla düşmən alayını darmadağın elədik. Bu döyüşdə sübut etdik ki, Azərbaycan hərbçisi, xüsusi təyinatlısı istənilən qüvvə ilə istənilən şəraitdə savaşmağa qadirdir, Azərbaycan əsgərinin döyüş ruhunu heç bir qüvvə sarsıda bilməz. Erməni əsgərinin qarşımızda duruş gətirməsi qeyri-mümkündür. Biz bu torpaqdan güc alırıq, onun hər qarışı bizim üçün müqəddəsdir.

Yaralı olduğum üçün komandanlığın tapşırığı ilə təxliyə edildim. Füzulidəki Hərbi Hospitalda əməliyyat olundum. Özümə gəldikdən sonra Şirvana, oradan da Bakıya göndərdilər. Hospitalda olanda da böyük qayğı gördüm.

Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva tez-tez bizimlə maraqlanır, bütün lazımi köməkliyin göstərilməsini tapşırırdı. Həkimlər də, həqiqətən, sağlamlığımızın bərpası üçün əllərindən gələni əsirgəmirdilər. Bizə elə bir qayğı göstərilirdi ki, sanki öz doğma balalarına diqqət edirlər. Həkimlər yeməyi mənə özləri yedizdirirdilər.

Bakıda olanda xüsusi təyinatlıların xoş xəbərlərini eşidirdim. Tez-tez əlaqə saxlayır və xoş xəbərlər alırdım. Sevincimdən hönkür-hönkür ağlayırdım: elə bilirdim ki, mən də onların yanındayam. Ali Baş Komandanımızın xoş müjdəli xəbərlərini eşidəndə qanadlanıb uçmaq istəyirdim. Bilirsiniz niyə? Çünki kiminsə yanında danışanda artıq utanmayacağıq, qızarmayacağıq, fəxrlə, qürurla deyəcəyik ki, biz qalib Azərbaycan Ordusunun hərbçiləriyik, qətiyyətli, güclü Ali Baş Komandanı olan ordunun bir parçasıyıq. Artıq alnımızda qara ləkə yoxdur, şəhidlərimizin, Xocalıda qətlə yetirilən soydaşlarımızın qanı yerdə qalmadı.

Xüsusi Təyinatlı Qüvvələr göstərilən etimadı layiqincə doğrultdu və bütün bunlara görə Ali Baş Komandanıma minnətdaram. Artıq sağalıram. Qolumun birini yaxşı işlədə bilməsəm belə ehtiyatda olan xüsusi təyinatlı kimi Ali Baş Komandanımın "dəmir yumruq" əməliyyatının növbəti mərhələsində də iştirak etməyə hazıram.

Vətən müharibəsi bir daha göstərdi ki, İlham Əliyev qətiyyətli, qüdrətli sərkərdədir. Çünki düşmənin belini Azərbaycan əsgərinin əzmi, cəsarəti, qorxmazlığı ilə yanaşı, həm də Müzəffər Ali Baş Komandanın qətiyyəti qırdı.

İlham Əliyev əsl sərkərdə qətiyyəti ilə adını Vətən müharibəsi tarixinə Qarabağın xilaskarı kimi yazdı və insanların qəlbində özünün Qarabağ boyda abidəsini ucaltmağı bacardı.

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən cənab İlham Əliyev ölkəmizi qətiyyətlə yeni və daha böyük hədəflərə doğru aparır. Azərbaycan yaxın illərdə Müzəffər Ali Baş Komandanımız İlham Əliyevlə daha böyük zəfərlərə imza atacaq.